

**Bahəddin SALMAN**

# KABUSLANMIŞLAR

## Povest

*"İnsan oğlu hər gün çarmıxa çəkilir; keçmiş ayaqları parçimləyir, gələcək isə əllərindən tutub dartır".*

**Əbu Turxan**

Altı aylıq ezamiyyətdən qayıtdığı üç gün idi. İllərdir heç cür rahatlıq tapa bilmədiyi daha bir sentyabr səhəriydi...

Soyuq duş qəbulundan sonra dolabdan çıxardığı paltarlarını, illər əvvəl tirajlanmış bir neçə "Müsavat" qəzetini səliqəylə götürüb, çarpayı ilə üzbəüz divanın üstünə qoydu. "Pikolinos" markalı qəhvəyi rəngli təzə ayaqqabılarını qutudan çıxarıb, qayğı və mehribanlıq ifadə edən baxışlarla otağın ortasına - döşəməyə qoydu.

- Fimar, sənin mənə qarşı nə sevgin var, nə də ehtirasın! Xahiş eləyirəm söz güləşdirmə, çünki dediklərimin hamısına əminəm! - çarpayıda gözüyumulu uzanan qadın yuxulu səsinin ahəngini mızıltıyla pozaraq dedi.

- Hmmm... Buna əminsən yəni? - deyə Fimar köynəyini geyinərək etinasız halda soruşdu.

Qadın yerində dikəlib, qolları ilə dizlərini qucaqladı və ərini ikrahla süzdü. Fimara elə gəldi ki, qadının baxışları yüksək sürətlə onun gözlərində gizlənən həqiqətə yönəldi. Bu baxışlar altı aydır mühəndislik elədiyi Pekin - London dəmiryol xəttiylə hərəkət edən yeni tipli yük qatarına oxşayırdı. Amma bu qatarın içi boşdur. Fimar dəmir yolunda şpallar və relslərin möhkəmliyini, dəstək mastikinin qüsursuz quraşdırıldığını, əlaqə tellərinin necə səliqə ilə uzadıldığını yada saldı.

- Sadəcə dahiyəm! - Fimar düşüncəli halda dilləndi.

- Heç zibil də deyilsən!

Qadının qəzəbli səsi onu səksəndirdi və sualedici baxışlarla arvadına sarı çevrildi. Qadın ayağa qalxıb, ərinin yanına gəldi və qışqıra-qışqıra sözünə davam elədi:

- Sənsən dahi?! Nəyin dahidir e sənin?! Düz iki ildir mənə vec qoymadığınçün dahisən?! Ələ salırsan məni?! - bunu deyib dabanını hirslə yerə vurdu. Döşəmədən qəribə taqqıltı gəldi. Qadın hönkürtü çəkib, özünü arxası üstə çarpayıya yıxdı. Fimarın bərəlmiş gözləri rinqdə burnu sınmış döyüşçüyə oxşayan ayaqqabısının sol tayının əzilmiş ucuna zillənmişdi.

- Əgər həbs qorxusu olmasaydı, mən bu qancığın hüceyrələrini sapa düzərdim! - deyə Fimar ağlından keçirdi və dizləri üstə çöküb, qorxaq bir mızıltıyla şəhadət barmağını ehtiyatla ayaqqabının əzilmiş yerinə toxundurdu. Qadın cəld çarpayıdan qalxıb, təəccüblə ərini süzdü, sonra aşağı əyilib, əllərini onun çiyninə qoydu və pıçıltıyla "Səndə çatmır! Sən başdanxarabsan! - dedi. Qəfil isterikayla qışqırıb, gözlərindən yaşlar süzülərək davam elədi: - Sən... Sən... Sən dəlisən! Sən murdar möcüzəsən!"

Fimar qadının qəzəbdən qızarmış üzünü, burnunun suyu ilə göz yaşlarının bir-birinə qarışdığı yeri - üst dodağını, altı torbalanmış və bərəlmiş gözlərini süzərək düşündü: - "İlahi, mənim çox eybəcər arvadım var imiş!" O, gözlərinə görünən bu kobud, çürükçü, vahiməli eybəcərliyi unutmaq üçün fərqli ölkələrdən olan iş yoldaşlarını - Çinli Kunu, Bonqu, irlandiyalı Niallanı, qazaxıstanlı Aybeki, Turqanı... digər fəhlələri, mühəndisləri, qaynaqçıları xatırlaya-xatırlaya tələsik şəkildə paltarlarını, bir tayı əzilmiş ayaqqabılarını geyinib, qəzetləri də qoltuğuna vurub bir söz də demədən evdən çıxdı. Həyətin darvazasına tərəf dayanan ağ rəngli "BMW 530" markalı avtomobilinin qapısını açıb, başını maşının içinə soxdu. Bir anlığa arxa oturacaqda sakit halda uzanmış, ayaqları sınmış, sarı tükləri qana bulaşmış küçə itinə göz gəzdirdi:

- Mən elə gözəl sevirəm, elə gözəl ehtiraslanıram ki!.. - var gücüylə qışqıran, bütün bədəni gərilən, üz-gözünü qırışdıran adam kimi dedi, amma qısıq səslə. Anidən sürücünün oturacağına tüpürdü, sifətini büruşdürərək oturacağın üstünə yapışmış tüpürcəyinə baxıb nifrətlə, - "Dünya hamının tüpürcəyini qurudacaq qədər gözəl, bahalı, səbrli, lal fahişədir!" dedi. Yaralı it onun bu fikrinə ürəkdağlayan zingiltiylə cavab verdi. O, darvazanı zərblə çırpıb, həyətdən çıxdı.

İyirmi dəqiqə sonra metrostansiyanın keçidində dayanıb, əlində tutduğu köhnə "Müsavat" qəzetlərini səhifələyirdi. Ortadakı qəzeti digərlərinin üstünə qoyub, son səhifədəki astroloji proqnozlara göz atdı.

"1999-cu il sentyabr ayının 22-nə olan Qoroskop.

Qoç bürcü: Bu gün uzun zamandır üzərində durduğunuz mövzular barəsində daha qalıcı qərarlar ala bilərsiniz. Son günlərdə içinizdən heç bir şey etmək gəlmir, amma bu gün özünüzü daha xoşbəxt hiss edəcək xəbərlər alacaqsınız. Səhər saatlarında qarın bölgənizdə ağrılar baş qaldıra bilər, amma günortaya doğru bu yöndə bütün əngəllər ortadan qalxmış olacaq".

Gözlərini qəzetdən ayırıb, metrostansiyanın girişinə yaxın çəhrayı rəngli divardakı məchul nöqtəyə zillədi. Siqaret yandırdı. Adamlar bu məchul nöqtənin qarşısından keçdikcə, o, heç kimə baxmadan sağa-sola boylanır, bu nöqtəni gözdən qaçıracaqmış kimi təlaşa düşürdü. Beş dəqiqə sonra keçid seyrəldi. Zilləndiyi nöqtəyə daha rahat baxmağa hazırlaşırdı ki, iri bir milçək onun baxdığı yerin ətrafında dövrə vurmağa başladı. Diqqətini heç cür toparlaya bilmirdi. Siqareti hirslə yerə atıb, ayağıyla basdaladı. Elə qəzəblənmişdi ki, ayaqqabısını çıxarıb, bu iri milçəyi bir zərbəylə divara yapışdırmaq istəyirdi. Məchul nöqtənin düz altında qəfildən balaca, ağ rəngli bir şey peyda oldu. O böyüdü, böyüdü, böyüdü... bir neçə saniyə içində ağ, şişman bir pişiyə çevrildi. Pişik başını yuxarı qaldırıb, milçəyi bir qədər izlədi, sonra bir həmlədə onu caynaqlarıyla yerə saldı və sağa-sola atılıb bir neçə dəfə basdaladı. Az sonra milçək pişiyin ağzında çeynənirdi. Fimar pişiyi, onun üstü parlaq qaşlarla bəzədilmiş qara boyunluğunu, ağ tüklərinin qar kimi təmizliyini sirli baxışlarla süzərək başa düşdü ki, bu həmyaşıdı olan mərhum bacısı Banunun iyirmi bir il əvvəl ölmüş Perlasıdır. Özünün 22-ci ad günü məclisinə qayıtdı: məclisdə hamının ağzı söhbətə qızışıb; anidən tüklü və caynaqlı bir əl masanın ucuna qoyulmuş dəmir külqabını nadincliklə yerə salır; dəmir külqabı taxta döşəmədə dövrə vurduqca, məclisdəkilərin danışığı zəifləyir; az sonra bu qulaqbatırıcı səsin təsirindən hamı susur. Masadakılar gülümsünərək birbirlərinə baxırlar. O, konyak badəsini sərxoşluqla yuxarı qaldırır və "Dostlar, anamın iyirmi iki yaşıma hədiyyə elədiyi bu külqabıda ömrüm boyu öz külümü söndürməyə and içirəm!" deyə qəhqəhə çəkib, bu susqunluğu pozur. Badələr toqquşmağa, hamı yenidən danışmağa, gülməyə başlayır.

Bu vaxt metrostansiyanın tunelindən çıxan qatarın siqnal səsi eşidildi. Ağ pişik mırıldanıb gözlərini qəzəblə Fimara zilləmişdi. Onun köpək dişi Fimara çox güclü təsir bağışladı. Pişiyin qəzəbli baxışları birdən-birə yoxa çıxdı və o başını yana əyib, "Ölülər səltənətində hər şey başqadı, buna maraqlıdır də demək olar. Məsələn, orda heç nəyi xatırlamırsan. Günlər o qədər gözəldir ki, ancaq sevinirsən, gülürsən, əylənirsən... Nə vaxt gəlsən, onda özün görəcəksən. Gedim mən!" deyə nazla geriyə çevrildi və "Bayu Bay" mahnısının melodiyasını mızıldanaraq, quyruğunu yelləyə-yelləyə gözdən itdi. Ətrafda çoxlu adamlar görünməyə başladı. Fimar "Bura da pis deyil... Bura da pis deyil... " deyə baxışlarını asta-asta məchul nöqtəyə çevirərək, pıçıltı ilə təkrarlayırdı. İki gənc qız onu ayaqdan-başa süzərək "Gözəgəlimli dəlidir, hələ qoltuğunda qəzeti də var!" deyib gülümsünərək, yanından keçib getdilər.

Stansiyadan çıxan adamların sayı yenə də azaldı. Fimar dərindən nəfəs alıb, ürkək addımlarla divara - məchul nöqtəyə yaxınlaşdı. Sağa-sola çevrildi, stansiyaya girib-çıxan təkəmseyrək adamlara ötəri nəzər salıb köks ötürdü. Üzünü divara tutub, boğazını arıtladı və uşağa xas səslə, gözlərindəki təlaş, mehribanlıqla dedi:

- Salam, əmi! Bugünkü "Müsavat" qəzetindən qalıb?

Cavab gəlmədi - zaman bu qəzetçi əmini çox sürətlə ötüb geridə qoymuşdu. Keçmişin divara saldığı xəyali xatirə izindən geriyə cansız bir boşluğun qaldığına əmin olunca, gözləri çarəsizliklə qırpılıb yaşla doldu... Bədənini qəribə, qorxulu, xoflu bir həyəcan bürüdü. Bu həyəcan onun ovuclarını iynələyərək, saçlarının dibinə doğru qaçdı və başına bərk qaşınma verib, boğazını qıcıqlandırdı, ordan da kimsə güclü birisinin vurduğu yumruq kimi qarın boşluğuna çırpıldı. Qarnında küt sancılar baş qaldırdı. Geriyə çevrilib, bayaq dayandığı yerə qayıtdı. Gözlərini təkrar məchul nöqtəyə zilləyib, çox çətin sezilən bir kədərlə gülümsünərək siqaret yandırdı. Bir qullab almışdı ki, qarnındakı ağrı şiddətləndi. Siqareti yerə atdı və pilləkənlərə doğru tələsərək, təlaşlı pıçıltıyla deyinməyə başladı. - "Kofe... kofe içməliyəm. Hə, bu yaxşı olar... Tualetə də dəyərəm! Yox, tualetə dəyib sonra kofe içərəm. Kaş, tualet boş ola! Axx, mənim ayaqqabımın burnuna bax!!! O gecə Banunun Perlanı harda basdırdığını bilmədik! - keçiddən sağa dönəndə gənc bir oğlanla toqquşdu, dayanmadan geriyə çevrilib yüksək səslə oğlandan üzrxahlıq elədi: "Ah... bağışla, qardaş!" - oğlan ona tərs nəzərlərlə baxıb keçidə düşdü. Təlaşlı pıçıltıyla özü-özüylə danışığına davam elədi: - "Dedim, axı, bağışla... Sən bir axmağın hikkəsinə bax!" - dayandı - "Qarnım səhər saatlarında ağrımalıydı?!" - qəzetləri qoltuğundan çıxardı, həmin səhifədəki astroloji proqnozu pıçıltıyla oxuyub, onları cəld bir hərəkətlə səliqəsiz şəkildə qatlayıb, irəliləməyə başladı - "Hə, nəsə, yəqin, kofe verilən yerin ayaqyolusu boş olar! Təyyarədəki o xallı, yekəqarın axmağın qırx üç dəqiqə tualetdə nə iş gördüyü hələ də başımdan çıxmır! O səfehin rahatlığından gözüm necə qorxubsa..." - yerində dayanıb, başını təngnəfəs yuxarı qaldırdı. Tabelada böyük hərflərlə "COFE PART" yazılmışdı. Qapını açıb içəri girdi.

Uzun illərdi ki, dünya onunla qəribə davranırdı. Nə vaxt ki alovlanan ehtirasının üstünə su səpib yuyunmaq üçün hamama keçərdi, içəridə onu cərgəylə qarşı-qarşıya dayanmış mollalar, keşişlər gözləyərdi. Onlar işarə barmaqlarını dodaqlarına söykəyib, sus işarəsi verər, Fimara içəri girib, qapını bağlamasını əmr edərdilər. O da aciz görkəm alıb itaətkarlıqla deyiləni edərdi. Mollalar əllərini onun boynuna salaraq, qulağına "sən zinakarsan!", keşişlər isə onun burnundan dartıb, özlərinə tərəf çəkər, qulağına "sən günahkarsan!" sözlərini pıçıldayardılar. O da özünü həm zinakar, həm də günahkar hiss edərdi. Günlərin bir günü, o bu məsələni yerli-dibli çözməyi qərara alıb, arvadını da qoltuğuna vurub, nikah bağlamaq üçün məscidlərdən birinə getdi. O günün gec saatlarında onlar elə gurultulu səs-küylə sevişdilər ki, aylardır mətbəxdən heç bir dərmanın qova bilmədiyi qarışqalar bütün yemlərini də yığıb, dolabın arxasındakı kiçik deşikdən keçib, evi tərk etdilər. Evin zirzəmisində gizlənən və bir-biri ilə illərdir yola getməyən iki siçovul bu yaxınlıqdan elə iştaha gəldi ki, az sonra çoşqun ciyiltiylə cütləşməyə başladılar. İşin sonunda hamama girmək istəyən Fimar bu dəfə mollaların getdiyini, amma keşişlərin hələ də orda olduğunu gördü, içəri girib pıçıltıyla keşişlərə "Mənim Allahımın məqsədi nədir, bəlkə, siz bilərsiz?!" - dedi. Cavabında keşişlər barmaqları ilə sus işarəsi verib, onun burnundan dartaraq, qulağına "sən hələ də günahkarsan!" sözünü pıçıldadılar. Fimar belə düşündü ki, bəlkə, sevişmək məkanını dəyişsə, hər şey düzələcək, amma hara getdisə, keşişlər də o yerin hamamına doluşdular. Arvadından soruşanda ki, - "Mən iki dinə birdən qulluq edə bilərəm?! - arvadı, - "Bu sarsaq bir ikiüzlülükdür" deyə cavab verdi. Sonda arvadı ilə sevişmək məsələsinə son qoydu. O gündən keşişlər də yox oldu.

Onun qəribə düşüncələri var idi. Avtomobil yolundan bir addım kənarda yatan itin yanından sürətlə ötüb keçəndə, avtomobilinin guya yoldan bir az kənara çıxdığını, itin quyruğunu tapdaladığını, heyvanın zingildədiyini xəyal edərdi. Belə xəyalların sonunda avtomobili kənara çəkər, itlərdən qorxduğu üçün yerdən götürdüyü daşı ehtiyatla ona tərəf atardı ki, heyvan oyanıb kənara çəkilsin. Bir dəfə də bu cür edəndə it yuxusundan dik atılıb, qorxuyla yola çıxdı və daş yüklənmiş böyük bir kamaz onu əzib keçdi. Həmin günün axşamı hamamdakı güzgünün qabağına keçib, düz bir saat yumruqla üzünə vurdu. Bununla özünə ən layiqli cəzanı verə biləcəyinə inanırdı. Sol gözü elə şişmişdi ki, bir həftəyə zorla açıldı. Bir həftədən sonra həmin itin qanlar içində avtomobilinin arxa oturacağında uzandığını görəndə ona elə bil qurşaqdan aşağı kimsə möhkəm təpik vurdu. İt gülümsəyərək ondan maşın sürməyi tərgitməsini, maşını ona bağışlamasını, bir də ki bu barədə heç kimə heç nə deməməsini, əgər desə, gəlib ömrü boyu onun yatağında uzanacağını deyəndə, Fimar başını yelləyərək, bu şərtlərlə razılaşdı. Həmin gün maşının bütün pəncərələrini qara rəngli plyonkayla bağladı və o gündən maşının açarını heç vaxt yanından ayırmadı. Və bir daha avtomobil sürmədi. Taksiyə, avtobusa minəndə gözlərini ancaq ayaqqabılarının ucuna zilləyirdi ki, yolda səhlənkar şəkildə uzanan itə, pişiyə qarşı canına hopmuş nigaranlıq hissi onu əsəbiləşdirməsin.

O, heç vaxt heç bir dəfndə iştirak etməzdi. Ölüm adı gələndə "Günah ölənin özündədir, məncə, insan ölməyə də bilər" deyirdi. Zamanla çoxluğun ölümə inamı onu fərqli fikirlərindən ayırdı və harda qəbristanlıq gördüsə, içəri keçməmiş, tanımadığı qəbirlərə dəqiqələrcə sualedici nəzərlərlə baxmamış, bu sirli vida barəsində çaşqınlıqla düşünməmiş, yoluna davam eləmədi. Belə günlərdən birində özünü bərk işə saldı. Sayca, bəlkə də, onlarla qəbrə sualedici nəzərlərlə baxmışdı. Birdən qəbristanlığı səs-küy bürüdü. Dəfn mərasimiydi. Böyük maraqla mərhumun necə dəfn olunacağını görmək üçün izdihama yaxınlaşıb, qəbirlərdən birinin hasarına çıxdı və baş verənləri bərəlmiş gözlərlə izləməyə başladı. Dörd nəfər kəfənə bürünmüş mərhumu tabutdan çıxarıb, iplə qəbrin içinə salladılar, sonra sol çiyni üstə çevirib başındakı, ayağındakı ipləri açdılar. Molla "Yasin" oxudu. Bu vaxt qəbrin içində ağlayaraq əlini mərhumun çiyninə qoymuş bir nəfər arabir meyiti silkələyirdi. O, bütün bu haqq-hesablara elə təəccüb, elə donuqluqla baxırdı ki... Mərhumun qəbrini örtəndə o lap dəhşətə gəldi. Qəbrin ağzını mərhumun baş tərəfindən piltə daşlarla örtərək artıq ayağına çatmışdılar. Son daşı da qoyub, qəbrin üstünə torpaq atmağa hazırlaşırdılar ki, o, hasarın üstündən izdihamın arasına tullandı və daşları qaldırmağa cəhd edərək, yüksək səslə ağlayıb-qışqırmağa başladı "Ah... Alçaqlar, qansızlar! Deməli, siz, "dəfn" buna deyirmişsiz! Nədir, durub qaçacaq?! Ahh, İlahi! Biz insanlar necə murdar məxluqlarıq! Bu cür yaradılışa nə ehtiyac varıydı - əgər son belə olacaqdısa?! Çıxarın onu, adamyeyənlər! - yerində çevri-

lərək - Tfuu, sizə! Tfu, tfu! Bütün bu haqq-hesab illərdir əziz bildiyiniz adamdan gələn iyi itirmək üçündür?! Tfuu... Tfu insanlıq... Ah... Qəddar dünya... Səni niyə belə yaratdılar?! - Bu vaxt bayaqdan onu sakitləşdirməyə çalışan gənclərdən biri, sonra ikisi, sonra üçü və dördü Fimarı möhkəmcə əzişdirməyə başladılar. O gündən sonra kimin ölüm xəbərini eşidirdisə, mərhuma öldüyü yox, dəfn olunacağı üçün ürəyi yanardı. Amma zamanla qəddarlıq adlandırdığı bu adətə özü də vərdiş elədi. Anasını dəfn edəndə, otuz altı gün qəbrin başından ayrılmadı və acanda qəbrin yan-yörəsindəki otları yolub, "anam mənə yemək hazırlayıb" deyə-deyə yedi. Onu kim ordan uzaqlaşdırmaq istədisə, - "Ölüb deyə onu bura qoyub getməyi vicdansızlıq qəbul edirəm!" - deyə qətiyyətlə etiraz elədi... Amma otuz yeddinci gün o da bu vicdansızlığı çar-naçar qəbul eləməli oldu. Bacısı öləndə daha soyuqqanlı olmuşdu. Zamanla onda başqa qəribəliklər də üzə çıxmağa başlamışdı.. Ona elə gəlirdi ki, günəşli havanın, pomidorların qoxusu keçmişdəki kimi deyil! Həyat qısaldıqca dünyanın ən işıqlı rəngi belə ona solğun görünür, qoxular isə yadlaşırdı. O, illər əvvəl günəşli, isti bir gündə duyduğu qoxunu, gördüyü parlaqlığı həmişə həmin hissiyyatla təkrar duymağa can atırdı. Bu həmin gün idi ki, anası dərin boşqabda ikiyə bölünmüş, arası duzlanmış pomidor və bir parça da buğlanan isti çörəyi eyvandan küləyin sağa-sola oynatdığı söyüd ağaclarını dalğınlıqla izləyən Fimara gətirmişdi. Elə bil pomidor ilk dəfə o zaman öz qoxusunu havaya yaymış, günəş ilk dəfə həmin gün o cür parlaq olduğunu sübuta yetirmişdi. O artıq bütün günəşli yay günlərində həmin doğma rəngi, bütün pomidorlarda o qoxunu axtarmağa başlamışdı.

"Coffe Part"ın qapısı açılanda səkidə dayanmış bir neçə sərçə qəfil pırıltıyla uçdu. Fimar quşların arxasınca başını yuxarı qaldırdı və günəşi görüb gözünü qıydı. "Dünyanın işığı öləziyir ya da ki..." - deyə pıçıldayaraq siqaret yandırdı, küçənin sağına-soluna boylanıb, qol saatına baxdı və tələsla, "Tam çıxdıqları vaxtdır!" deyə tez-tez addımlamağa başladı.

Beşmərtəbəli binalarla əhatələnmiş asfalt yola düşən eyvanların dördkünc kölgələrini, hündür ağacların yarpaqları arasından bu kölgələrə toxunan günəşin üçbucaq şəkilli parlaq şəfəqlərini yumşaq addımlarla tapdalaya-tapdalaya məktəbin darvazasına çatdı. Qoltuğundakı qəzetlərin yerini bərkitdi, sola çəkilib darvazadan çıxan şagirdlərə, valideynlərə nəzakətlə yol verdi.

- Buyurun... Buyurun

Ona təşəkkür edən də olmadı. Boğazını arıtlayıb, içəri girdi. Qolundakı saata baxa-baxa cəld addımlarla həyətdəki qumluq əraziyə bərkidilmiş dəmir masaya yaxınlaşdı. Masanın üstü ora söykənib söhbət edən şagirdlərin bel çantalarıyla dolu idi. Yanını günəşin qızdırdığı masaya qoyan kimi istilik bütün içinə yayıldı. Sola çevrilib ehtiyatla üçüncü mərtəbənin ən başdakı pəncərəsinə boylandı və qəfildən dik atıldı, "Ay Allah, dəhşətdir!... Dəhşət!.. Dəhşət!.." deyə durmadan təkrarlayaraq, masaya və pəncərəyə heyrətlə baxa-baxa, özü də fərqinə varmadan, bir az irəlidə - binanın girişi ilə üzbəüzdəki oturacaqlardan birinə çökdü.

- Ha ha ha... Hə, dəhşətdir, amma baxır nə? - deyə oturacağın sol tərəfində əyləşən təxminən yetmiş yaşlarındakı kişi gülərək ondan soruşdu.

- Nə?!

- Dəhşətli o qədər şey var ki, deyirəm səni dəhşətə gətirən nədir? - kişi sualını açıqladı.

Fimar bir neçə anlığa kişini başdan-ayağa süzdü, sonra nə deyəcəyini bilmədiyindən sağına-soluna çevrilərək - Heç nə - dedi. - Şagirdlərdən biri pəncərədən aşağı necə boylandısa, az qala yıxılsın, bir də ki, - üzünü kişiyə çevirib gülümsünərək barmağıyla dəmir masaya işarə elədi - o yaman qaynardı, az qala bağırsaqlarımı yandırmışdı.

*(Davamı gələn sayımızda)*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 16 sentyabr.- S. 25.